**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**A.A.BAKIXANOV ADINA TARİX İNSTİTUTU**

*Əlyazması hüququnda*

**AQİL PİRMURAD OĞLU ƏHMƏDOV**

# İSLAM KONFRANSI TƏŞKİLATI VƏ AZƏRBAYCAN RESPUBLİKASI (1991-2006)

**İxtisas: 5503.02 – Vətən tarixi**

**Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI – 2013**

Dissertasiya işi AMEA Milli Azərbaycan Tarixi Muzeyinin «Azərbaycan tarixinin elmi ekspozisiyası» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** **R.Y.ƏLİYEV**
***fəlsəfə üzrə elmlər doktoru, professor***

**Rəsmi opponentlər:** **A.H.PAŞAZADƏ**
***tarix üzrə elmlər doktoru, professor***

**A.H.MUSAYEV**
***tarix üzrə fəlsəfə doktoru, dosent***

**Aparıcı müəssisə:** Azərbaycan Dövlət Pedaqoji Universitetinin «Azərbaycan Tarixi» kafedrası

Müdafiə Azərbaycan Milli Elmlər Akademiyasının A.A.Bakıxanov adına Tarix İnstitutunun nəzdində tarix üzrə elmlər doktoru və tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün dissertasiyaların müdafiəsini keçirən D.01.161 Dissertasiya Şurasının «_27__» __12__2013-cü il tarixli iclasında saat_____da keçiriləcək.

**Ünvan:** AZ 1143, Bakı şəhəri, H.Cavid prospekti, 31

Dissertasiya ilə AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun Elmi Arxivində tanış olmaq olar.

Avtoreferat «___» _______________2013-cü ildə göndərilmişdir.

**Dissertasiya Şurasının**
**elmi katibi:** **C.Ə.BƏHRAMOV**
***tarix üzrə fəlsəfə doktoru***

# DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Müsəlman ölkələrinin birliyi, yəni islam həmrəyliyi tezisi yaxın tarixdə aktuallıq kəsb etsə də sırf İslam Konfransının ərsəyə gətirilməsi ideyası, I dünya müharibəsindən sonra görkəmli islam mütəfəkkirlərinin beynəlxalq imperializmə qarşı haqq səslərini ucaltmaları ilə nəticələnmiş və 1926-cı ildən islam aləmində kiçik iqtisadi, mədəni əməkdaşlıq qurumları yaranmışdır. Bu səbəbdən İslam Konfransı Təşkilatının (İKT), 2011-ci ildə dəyişilmiş adıyla İslam Əməkdaşlığı Təşkilatının (İƏT) təsisatı müsəlman xalqlarının keçən əsrin əvvəllərindən başladığı və XX əsrin II yarısında başa çatdırdığı islam həmrəyliyi, suveren hüquqlarının bərpa olunduğu dövrədək tarixi inkişaf yolu keçmişdir. II dünya müharibəsindən sonra Qərb müstəmləkəçilik siyasətinin iflasa uğradığı və «soyuq müharibə»nin davam etdiyi 1946-1969-cu illərdə müsəlman ölkələri müstəqillik uğrunda lokal silahlı üsyanlar istisna olmaqla, böyük dövlətlərin yeni müstəmləkə siyasətinə qarşı mübarizəni davam etdirmişlər. Mürəkkəb şəraitdə ABŞ, SSRİ və BMT-nin dəstəyindən bəhrələnən Afrika və Asiya müsəlman ölkələri müstəmləkə rejimindən xilas olaraq müstəqil hüquqlarını bərpa etmişlər. Bu addım İƏT-in yaranması ərəfəsində islam dünyasında baş verən mühüm tarixi hadisələrdən biri idi. Sadalanan məqamların təhlili tədqiqat işinin aktuallığını artırmışdır.

XX əsrin sonlarına doğru SSRİ-nin süqut etməsi Sovet İttifaqına daxil olan müsəlman respublikaları kimi Azərbaycan Respublikasının da dövlət müstəqilliyini yenidən bərpa etmək hüququnu özünə qaytarır. İƏT ilə əlaqələrin qeyri-rəsmi olsa da 1990-cı ildən qurulmasına baxmayaraq, Azəraycan dövlətinin İƏT ilə münasibətlərinin ilk mərhələsi respublikanın müstəqilliyini bərpa etdiyi dövrdə başlanmışdır. 1991-ci ildə Azərbaycan Respublikası hökumətinin müstəqil xarici siyasət kursunun təyin olunması istiqamətində ilk dəfə dini bir olan dövlətlərlə diplomatik əlaqələrinin qurulması və əməkdaşlığın möhkəmləndirilməsi məqsədilə beynəlxalq siyasi-sülh təşkilatı İƏT-ə tamhüquqlu üzv qəbul olunması və iyirmi ildən yuxarı vaxt ərzində həyata keçirilən çoxşaxəli münasibətlərin perspektiv inkişaf mərhələlərinin tədqiq olunması problemin aktuallığını şərtləndirərək işin elmi-praktik əhəmiyyətini göstərir. Azərbaycanın bir dövlət kimi

beynəlxalq təşkilatlarda sülhməramlı fəaliyyətini artırması görkəmli dövlət xadimi Heydər Əliyevin xarici siyasətilə sıx bağlıdır. Bu baxımdan Azərbaycan Respublikasının İƏT-dəki təmsilçiliyinin on ili ərzində baş verən müsbət dəyişikliklər məhz Heydər Əliyevin təşkilatın ən mötəbər məclisi sayılan İƏT dövlət və hökumət başçılarının zirvə toplantılarındakı çıxışları, İƏT baş katibləri Həmid əl-Qabid, İzzəddin Laraki və müsəlman ölkələrinin liderlərilə keçirdiyi görüşləri, islam Şərqinə rəsmi səfərlərilə əldə olunmuşdur. Əməkdaşlığın davam etdiyi son on il ərzində isə Prezident İlham Əliyevin respublikanın xarici siyasətində islam amilinə göstərdiyi yüksək münasibət Azərbaycan Respublikasının İƏT ilə əməkdaşlığına yeni töhfə vermişdir. Azərbaycan dövlətinin İƏT ilə əlaqələrinin tədqiq olunmasında belə mühüm məqamlara diqqət yetirilməsi problemin aktuallığını artıraraq dissertasiyanın konseptual təhlilinin mövcud prioritetini müəyyən etmişdir.

Azərbaycan Respublikası ilə əməkdaşlığa başladığı ilk gündən İƏT Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsində birmənalı mövqe tutmuş, bu günə kimi də haqlı yanaşmanı dəyişməmişdir. Bu üzdən İƏT-in BMT və ATƏT çərçivəsində Azərbaycan Respublikasının haqq işinin beynəlxalq parlament və təşkilatlarda müdafiə olunması işinə verdiyi dəstək mövzunun aktuallığını artırmışdır. Dissertasiyanın bu aspektdə araşdırılması tədqiqat işinin çox aktual mövzuya həsr olunduğunu bir daha şərtləndirərək, problemin Vətən tarixşünaslığına mühüm nəticələr bəxş edəcəyini əsaslandırır. Azərbaycan Respublikasının İƏT çərçivəsində yaratdığı əməkdaşlıq əlaqələri sırasında sosial-iqtisadi və mədəni münasibətlərə də dissertasiya işində geniş yer verilərək təhlil olunması problemin elmi əhəmiyyətini artırmış və işin aktual mövzuya həsr olunduğunu müəyyən etmişdir.

**Tədqiqatın xronoloji çərçivəsi.** Dissertasiyanın mövzusunda birinci tərəf İKT olduğu üçün 1926-1969-cu illərdə təşkilatın təşəkkül dövrü, islam dünyasında baş verən ictimai-siyasi hadisələr təhlil olunaraq qurumun təsisat tarixinə nəzər salınmış, struktur fəaliyyəti və digər vacib amillər önə çəkilmişdir. Azərbaycan Respublikasının İƏT ilə çoxşaxəli əlaqələrinin təhlilinə geniş yer verilmiş, 1991-2006-cı illər xronoloji çərçivə təşkil etmişdir. Bununla yanaşı İƏT-in

Azərbaycan Respublikası ilə bağlı son illərdə qəbul etdiyi mühüm sənədlər də dissertasiyanın tədqiqinə cəlb edilmişdir.

**Tədqiqatın öyrənilmə səviyyəsi.** Aparılan araşdırmalar problemin bu günə qədər kompleks şəkildə tədqiq olunmadığını göstərir. Bu səbəbdən Azərbaycan Respublikasında beynəlxalq münasibətlər tarixinə dair yazılan əsərlərdə, respublikanın beynəlxalq təşkilatlarla münasibətləri, dövlətlər və hökumətlərarası əməkdaşlığı, eyni zamanda İƏT və Azərbaycan Respublikasının İƏT ilə əməkdaşlığına dair tarixçi, politoloq, hüquqşünas, filosof, şərqşünas, dinşünas və s. tədqiqatçıların əsərlərində maraqlı şərhlər verilmişdir. Bu baxımdan Ə.Həsənov, Y.Mahmudov, Ş.A.Paşazadə, S.Qəndilov, H.Əlibəyli, R.Əliyev, M.Abdullayev, S.Sayadov, V.İbayev, M.Qasımlı, İ.Hüseynova, H.Məmmədova, A.Musayev, H.Babaoğlu, E.Abdullayev, E.Əhmədov, S.Eyyubova və b. ziyalıların əsərlərində mövzu ilə bağlı məlumatlar tədqiqatın əhəmiyyətini artırmışdır[1].

Müstəqilliyinin bərpasından əvvəl və ilk illərində Azərbaycan Respublikasını İƏT-də ilk təmsil edən şəxs Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxulislam Allahşükür Paşazadə olmuşdur. Dissertasiyanın öyrənilmə səviyyəsi və əhəmiyyətinin tədqiq edilməsində Ş.A.Pşazadənin «Qafqazda islam» əsərinin «İslamda müharibə və sülh məsələləri: dinin qayələri və nüvə əsrində gerçəklik» bölməsində islamın hər növ silahlı qarşıdurmaya, o cümlədən nüvə silahının yayılmasının dünyada sülh və əminamanlığa ciddi təhdid olduğu, bu baxımdan 1986-cı ildə şeyx həzrətlərinin təşəbbüsü və rəhbərliyi, İƏT-in dəstəyilə Bakıda keçirilən «Müsəlmanlar sülh uğrunda mübarizədə» beynəlxlaq islam konfransından bəhs edilir.

Azərbaycan Respublikasında İƏT haqqında ilk tədqiqat işi 1986-cı ildə şərqşünas Rafiq Əliyev və G.Sultanovun həmmüəllifləri olduqları «Beynəlxalq islam təşkilatları» kitabıdır[2]. V.İbayevin «İslam Konfransı Təşkilatı» mövzulu monoqrafiyası bu əlaqələr haqqında ilk

---

[1] Abdullyev M. Beynəlxalq münasibətlər tarixi. 2 cilddə, II c. (1945-2000). Bakı: Mütərcim, 2000, 205 s.; Həsənov Ə. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 604 s.; Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995), Bakı: Gənclik, 1996, 135 s.

[2] Beynəlxalq İslam Təşkilatları / Əliyev R., Sultanov G. Bakı: Azərbaycan SSR EA, 1986, 97 s.

təsəvvür yaradan mənbələrdən biridir[1]. Burada xronologiya 1991-1998-ci illəri əhatə edir. Son illər ərzində isə ilk dəfə «İKT beynəlxalq münasibətlər sistemində (1969-2000)» mövzusunda S.Eyyubovanın tədqiq etdiyi dissertasiyası İƏT-in beynəlxalq münaqişələrin aradan qaldırılması istiqamətində tutduğu sülhməramlı mövqeyinə həsr olunmuşdur[2]. S.Eyyubova İƏT-in beynəlxalq siyasəti haqqında yazan ilk azərbaycanlı müəllifin 1998-ci ildə V.İbayev olduğunu qeyd etsə də bizim araşdırmamız nəticəsində bu haqda ilk məlumat verən şəxsin yuxarıda da deyildiyi kimi 1986-cı ildə R.Əliyev olduğu məlum olmuşdur. S.Eyyubova İƏT-in təsisat tarixi və təşkilatın ilk konfransının nəticələri haqqında danışarkən İran tarixçisi Homayun Əsədin 1993-cü ildə Tehranda nəşr olunmuş «Rabat İslam Konfransının nəticələri»[3] kitabını misal çəksə də bizim araşdırmalarımız təsdiq edir ki, bu mövzuda H.Əsəddən beş il əvvəl yazan ilk xarici müəllif, Abdullah əl-Əhsən olmuşdur. Onun 1988-ci ildə ingiliscə nəşr olunan «İslam Konfransı Təşkilatı» kitabında təşkilatın yaranma tarixinə dair geniş şərh verilmişdir. Bundan əlavə təşkilatın təsisat tarixini tədqiq edən azərbaycanlı alimlər İƏT-in yaranmasına təsir edən ictimai-siyasi amillərə toxunarkən qurumun ərsəyə gətirilməsində vacib rol oynamış mənəvi amili əsərlərində zəif işıqlandırmış və ya diqqətdən kənarda qoymuşlar. Təqdim etdiyimiz dissertasiya işində bununla bağlı az əvvəl adı çəkilən tədqiqatçı A.Əl-Əhsənin qeyd olunan əsərində ətraflı məlumat verildiyi, təşkilatın təsisatında Quranda adı keçən «ümmət» məhfumunun mahiyyəti açıqlanmışdır[4]. Son dövrlərdə İƏT-in geniş fəaliyyətini şərh edən maraqlı nəşrlərdən qurumun baş katibi Əkmələddin İhsanoğlunun təşkilatın sülhməramlı fəaliyyətilə bağlı 1969-2009-cu illəri əhatə edən kitabı[5], İƏT və qurumun baş katibinin siyasi fəaliyyətilə bağlı Rusiya tarixçilərinin əsərləri dissertasiyanın

---

[1] İbayev V. İslam Konfransı Təşkilatı. Bakı: Elm, 1998, 196 s.; Yenə onun: İKT-nin yaranması və beynəlxalq hüquqi statusu // «Qanun» jurnalı, № 1-2, 1998 s. 3-4.

[2] Eyyubova S. İslam Konfransı Təşkilatı beynəlxalq münasibətlər sistemində (1969-2000), tarix elmləri namizədi dissertasiyası. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı: 2007, 160 s.

[3] Əsəd H. Rabat İslam Konfransının nəticələri. Tehran, 1993, 130 s.

[4] Al-Ahsan A. The Organization of The Islamic Conference. The International Institute of Islamic Thought. Herndon: 1988, USA , 236 p.

[5] Ihsanoglu E. The Islamic world in the new century (The Organization of the Islamic conference 1969-2009). London: Horst & Company, 2010, 245 s.

tədqiqində səmərə təşkil etmişdir. Bu tədqiqatlardan Tatarıstan Respublikasının sabiq prezidenti M.Şaymiyevin rəhbərliyilə çap olunan Rusiya-İƏT münasibətlərinə həsr olunmuş sənədlər məcmuəsi[1], Y.Sidorovanın İƏT-in siyasi və sülhməramlı missiyasına həsr olunmuş dissertasiyası[2] və ya V.Popovun İƏT baş katibinin fəaliyyətilə bağlı kitabı diqqət çəkir[3]. Sadalanan kitablar tədqiqatın yerinə yetirilməsində əhəmiyyətli mənbə rolunu oynayır.

Asiya Müsəlmanları Komitəsinin sədri Adil Abdulla əl-Fəlahın «Heydər Əliyev və milli mənəvi dəyərlər» kitabında görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycan Respublikasının İƏT ilə münasibətlərinin inkişafında göstərdiyi yüksək xidmətlərinə dair məqamlara toxunulmuşdur.[4]. Heydər Əliyev irsi elektron kitabxanası tərəfindən işıq üzü görən «Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında» kitabı mövcud münasibətlərə dair statistik məlumat xarakterli dəyərli mənbə sayılır[5]. Burada Azərbaycan Respublikasının İƏT-lə qurulan münasibətlərinə toxunulmuş, əsasən Heydər Əliyevin 1994, 1997-ci illərdə islam zirvələrindəki çıxışları, müsahibələri və Prezident İlham Əliyevin 2005-ci ildə İƏT-in Məkkədə keçirilən III fövqəladə zirvə konfransındakı məruzəsinin mətni verilmişdir. Ə.Həsənovun «Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti» kitabının «Azərbaycanın islam ölkələrilə çoxtərəfli münasibətləri: Azərbaycan-İslam Konfransı Təşkilatı» yarımfəslində, Azərbaycan dövlətinin İƏT ilə qurulan əlaqələrinin əhəmiyyəti şərh olunur. Əsərlərin dissertasiya işinin tədqiqində faydalı olan yarımfəsillərindən istifadə olunmuşdur.

---

[1] Россия и Организация Исламская Конференция. Сборник доументов и материалов / с предисловием М.Ш.Шаймиева. Казань, 2008, 320 с.;

[2] Сидорова Е. Организация Исламская Конференция: потенциал развития и технологии политической деятельности в процессе институционализации нового мирового порядка. Диссертация кандидата политических наук. Нижегородский Государственный Университет им. Н.И.Лобачевского. Нижний Новгород: 2009, 191 с.

[3] Попов В. Выдающийся деятель исламского мира профессор Экмеледдин Ихсаноглу (генеральный секретарь Организации Исламская Конференция). М.: ИД Медина, 2010, 206 с

[4] Əl-Fəlah A. Heydər Əliyev və milli mənəvi dəyərlər. Bakı: Qismət, 2007, 108 s.

[5] Azərbaycan İslam Konfransı Təşkilatı sıralarında / A.Nadirovun elmi məsləhətçiliyilə. Bakı: Apostrof, 2008, 319 s.

Bizim tədqiq etdiyimiz mövzu isə İƏT və sırf Azərbaycan Respublikasının İƏT ilə çoxtərəfli münasibətlərinə həsr olunmuşdur.

Azərbaycan Respublikasının İƏT-lə əməkdaşlığında əsas diqqət Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması probleminə yönəlmişdir. Son dövrlərdə isə azərbaycanlı alimlər bununla bağlı öz əsərlərində İƏT-in birmənalı mövqeyini şərh etməkdədirlər. E.Əhmədov «Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və beynəlxalq təşkilatlar» adlı monoqrafiyasında İƏT-in münaqişənin nizamlanması ilə bağlı konstruktiv mövqeyinə toxunmuşdur [1]. E.Abdullayevin «Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində» əsərinin «İslam Konfransı Təşkilatı» bölməsində İƏT-in münaqişənin nizamlanması istiqamətində BMT və ATƏT kimi nüfuzlu qurumlarla yazışmalarından bəhs olunur [2]. V.İbayev «Ermənistan-Azərbaycan, Dağlıq Qarabğ münaqişəsi beynəlxalq hüquq müstəvisində» kitabının «İslam Konfransı Təşkilatının Ermənistan-Azərbaycan münaqişəsi ilə əlaqədar qəbul etdiyi qətnamələr beynəlxalq hüquqa əsaslanan sənədlərdir» bölməsində haqlı olaraq İƏT qətnamələrində Ermənistanın təcavüzkar kimi tanınmasının beynəlxalq hüquqi əhəmiyyətini şərh etmişdir [3]. H.Məmmədovanın «Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi» monoqrafiyasının «Avropa Şurası, Avropa Birliyi və İslam Konfransı Təşkilatı» adlı yarımfəslində İƏT-in münaqişənin sülh yolu ilə həll olunması istiqamətində Azərbaycan Respublikasına göstərdiyi birmənalı dəstəyi öz əksini tapmışdır [4]. H.Babaoğlunun «Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu» monoqrafiyasının «Beynəlxalq təhlükəsizlik sistemində Azərbaycan Respublikasının yeri və rolu» paraqrafında respublikanın İƏT-ə üzv qəbul olunmasının beynəlxalq müstəvidə təhlükəsizliyinin təmin olun-

---

[1] Əhmədov E. Ermənistanın Azərbaycana təcavüzü və beynəlxalq təşkilatlar. Bakı: Turan, 1998, 137 s.

[2] Abdullayev E. Dağlıq Qarabağ problemi beynəlxalq hüquq müstəvisində. Bakı: Təhsil, 2004, 216 c.

[3] İbayev V. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq müstəvisində. Bakı: Elm, 2006, 696 s.

[4] Məmmədova H. Azərbaycan Respublikasının xarici siyasətində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi. Bakı: Elm, 2009, 360 s.

ması və maraqlarının müdafiə olunmasında əhəmiyyət daşıdığı vurğulanır[1]. Azərbaycan Respublikasının xarici işlər nazirliyinin 1992-1995-ci illəri əhatə edən «İKT və İKT ölkələri İdarəsi»nin 21 saylı qovluğunda «İKT Xarici İşlər Nazirlərinin XXII konfransının gündəliyi» arxiv sənədinin «Siyasi, hüquqi, informasiya məsələləri, azsaylı xalqlar və müsəlman icmalarının problemləri» 4-cü maddəsində siyasi məsələlər siyahısına «Ermənistan-Azərbaycan münaqişəsi» daxil edilmişdir[2]. Qeyd olunan İdarənin Azərbaycan Respublikasının İƏT ilə 1997-1998-ci illərədəki əməkdaşlığına dair «Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyilə yazışma» 21 saylı qovluğunda isə 1997-ci ilin 11 martında Heydər Əliyevin Səudiyyə Ərəbistanı kralı Fəhd bin Əbdül Əziz əl-Səuda ünvanladığı məktub (№ I/485) diqqət çəkir. Məktubda Ermənistanın Azərbaycana qarşı 8 ildən artıq davam edən işğalçılıq siyasətinə qarşı səylərin gücləndirilməsinin əhəmiyyəti vurğulanır[3]. Lakin İƏT-in digər siyasi təşkilatlarla müqayisədə beynəlxalq arenada mövqeyini daha aktiv şəkildə bəyan etməməsi, Azərbaycan da daxil olmaqla İƏT dövlətlərinin üzləşdiyi mürəkkəb siyasi və hərbi məsələlərin sülh yolu ilə tənzimlənməsini dəstəkləyən daha ciddi addımlar atmasını gərəkdirməkdədir. Dissertasiyanın öyrənilmə səviyyəsi bu istiqamətdə öz həllini tapmışdır.

Azərbaycan Respublikasının İƏT ilə münasibətlərində geniş yer verilən digər məsələ, qurum ilə Azərbaycan dövləti arasında iqtisadi əməkdaşlığın perspektiv inkişafı ilə əlaqədardır. Azərbaycan Respublikasının İƏT ilə iqtisadi əməkdaşlığı ayrıca tədqiqat obyekti olmasa da respublikanın daxili və xarici siyasətindən bəhs edən əsərlərdə ikitərəfli əlaqələr şərh olunur. Bu baxımdan akademik Ramiz Mehdiyevin ümumi redaktəsilə nəşr olunan «Azərbaycan Respublikası 1991-2001» kitabının «Xarici iqtisadi siyasət» bölümündə

---

[1] Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: 2009, 328 s.

[2] İKT və İKT ölkələri İdarəsi / «İKT XİN-nin konfranslarına dair sənədlər» qovluğu № 21, başlanıb: 11.05.1992, tamamlanıb: 21.12.1995, 37 sənəd, 229 vərəq, v. 123.

[3] İKT və İKT ölkələri İdarəsi / «Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı səfirliyi ilə yazışma» qovluğu № 21, başlanıb: 01.02.1997 (N-97-4/8), tamamlanıb: 21.12.1998 (N-5/4922), 128 sənəd, 246 vərəq, v. 166-168.

respublikanın İİB və Küveyt Fondu ilə əməkdaşlığı nəticəsində ümumi məbləği 73 milyon ABŞ dolları olan layihələrdən bəhs olunur [1]. Samir Azərinin «Faizsiz islam bankları» kitabında Azərbaycan Respublikasının İİB ilə əməkdaşlıq əlaqələrinə toxunulmuşdur [2]. Akademik Z.Səmədzadənin ümumi redaktoru olduğu 5 cildlik «Böyük iqtisadi ensiklopediya»nın III cildinin «İslam İnkişaf Bankı» və «İslam bank sistemi» başlıqlı bölmələrində Azərbaycan Respublikasının müxtəlif illərdə İİB ilə həyata keçirdiyi əməkdaşlıq münasibətləri və bankın yaranma tarixi şərh olunur[3].

İƏT çərçivəsində Azərbaycan Respublikasının İSESKO ilə əməkdaşlığına dair müstəqil tədqiqat işi yerinə yetirilməsə də respublikada nəşr olunan müxtəlif kitabların yarımfəsillərində, xarici işlər nazirliyinin arxiv sənədlərində ikitərəfli əlaqələrdən bəhs edən sənəd və məlumatlardan istifadə olunmuşdur. Azərbaycan Respublikasının xarici işlər nazirliyinin «İKT və İKT ölkələri İdarəsi»nin təqdim etdiyi və nazirliyin «Mədəniyyət və humanitar əlaqələr idarəsi»nin I katibi A.Əliyevin imzası ilə təsdiq olunan «Azərbaycan-İSESKO əməkdaşlığı haqqında məlumat» Azərbaycan Respublikasının İƏT ilə mədəni əlaqələri haqqında məlumat verən əsas mənbələrdəndir. Sənəddə Azərbaycanın dövlətinin İSESKO-ya üzvlüyü və ikitərəfli mədəni tədbirlər təsbit olunmuşdur[4]. S.Eyvazovanın elmi redaktorluğu ilə işıq üzü görən «Humanizm və xeyrxahlıq missiyası» kitabının «İSESKO ilə əməkdaşlıq da uğurla inkişaf edir» və s. bölmlərində, akademik A.Nadirovun məsləhətçiliyilə Azərbaycan, rus və ingilis dillərində nəşr olunan «Azərbaycan qadını naminə» kitablarında Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın İSESKO-nun xoşməramlı səfiri seçilməsi və bu istiqamətdə fəaliyyətindən bəhs olunur. S.Budaqovanın «Ümid qapısı, mərhəmət ünvanı», A.Həbibqızının

---

[1] Azərbaycan Respublikası 1991-2001 / akademik R.Mehdiyevin ümumi redaktorluğu ilə. Bakı: XXI-Yeni Nəşrlər Evi, 2001, 280 s.; Azərbaycan Respublikası Ali Sovetinin qərarlarının qeydiyyatı dəftəri № 152, 1991-1992.

[2] Azəri S. Faizsiz islam bankları. Bakı: «Kövsər Bank» ASC, 2009, 265 s.

[3] İslam İnkişaf Bankı (İİB). Böyük iqtisadi ensiklopediya / red. akademik Z.Səmədzadə. 5 cilddə, III c. Bakı: Şərq-Qərb, 608 s

[4] İKT və İKT ölkələri İdarəsi / «İKT XİN-nin konfranslarına dair sənədlər» qovluğu № 21, başlanıb: 11.05.1992, tamamlanıb: 21.12.1995, 37 sənəd, 229 vərəq, v 2.

elmi redaktorluğu ilə nəşr olunmuş «Xoşməramlı səfir» sənəd və məqalələr məcmuəsində YUNESKO ilə yanaşı İSESKO-nun xoşməramlı səfiri kimi Mehrian Əliyevanın sülhsevər missiyası, Azərbaycan Respublikası ilə İƏT arasındakı elmi-mədəni əməkdaşlıq əlaqələrinin genişlənməsinə verdiyi töhfə şərh olunmuşdur [1]. Mədəniyyət və Turizm Nazirliyinin nəşri olan «Mədəniyyətimizin və mədəni incilərimizin hamisi», xüsusilə bu layihənin davamı olaraq ingilis dilində nəşr olunan «Azərbaycan mədəniyyəti gələcək nəsillərə ərmağandır» kitabı və 2011-ci ildə Suriyada ərəb dilinə tərcümə olunan həmin əsərdə Azərbaycan Respublikasının İƏT ilə mədəni əlaqələrinin inkişafında Azərbaycanın birinci xanımının fəaliyyəti şərh olunur. Azərbaycan Respublikasının Pakistandakı səfirliyinin təşəbbüsü ilə işıq üzü görən «Azərbaycan və Pakistan – dostluq və əməkdaşlığın 20 ili» kitabında Mehriban Əliyevanın İSESKO-nun xoşməramlı səfiri kimi fəaliyyətinin İƏT ölkələrinin ziyalı qadınlarına nümunə olduğu vurğulanır. Təhlil olunan bütün əsərlər problemin öyrənilmə səviyyəsinin tədqiqində əhəmiyyət kəsb etmişdir.

**Tədqiqatın mənbə bazası.** Problemlə bağlı əsasən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin[2], Milli Məclisin[3], Mədəniyyət və Turizm[4], İqtisadi İnkişf nazirliklərinin, M.F.Axundov adına Milli Kitabxananın arxiv mənbələrindən lazımi səviyyədə istifadə edilmişdir.

Azərbaycan Respublikasının müstəqil dövlət olaraq İƏT-ə üzvlüyünü bəyan edən ilk rəsmi açıqlama 90-cı illərin əvvəllərində ölkədə nəşr olunan «Azərbaycan», «İslam», «Şərq», «Həyat», «Şəhriyar», «Bakinskiy Raboçiy», «Kommunist» və s. qəzetlərdə «Dakar konfransından şad xəbər», «45 üstəgəl Azərbaycan» və digər başlıqlı

---

[1] Xoşməramlı səfir / elmi red. A.Həbibqızı. Bakı: Şəms, 2011, 744 s.

[2]Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin beynəlxalq təşkilatlarla əlaqələr idarəsinin cari arxivi / İKT 1994-2006; AR XİN-nin cari arxivi / «Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyinin göndərdiyi materiallar – 1, 2, 3, 4» qovluğu; AR XİN cari arxivi / «İKT – informasiya materialları» qovluğu; AR XİN cari arxivi / «İKT-Sazişlər» qovluğu.

[3] Azərbaycan Respublikası Milli Məclisinin Arxivi / f. 2941, siyahı 1, İş № 1-6, 1991; AR MM Arxivi / f. 2941, siy. 1, İş № 16-20, 1992; AR MM Arxivi / «AR MM-in sədrinin xarici ölkələrə səfərləri» qovluğu, 1997-2006.

[4] Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Arxivi / f. 11, siy. 2, bağ. 52.

məqalələrdə öz əksini tapmışdır. Son dövr qəzetlərindən daha çox, «Azərbaycan», «Xalq qəzeti», «Respublika», «Yeni Azərbaycan», «İki sahil», «525-ci qəzet», «Üç nöqtə», «Exo», «Xalq cəbhəsi» və başqalarından istifadə olunmuşdur. İƏT-in rəsmi xronikası sayılan «OIC Journal», İSESKO-nun «Islam today» jurnalı, «Diplomatiya aləmi», «Azerbaijan focus», «Region plyus», «Beynəlxalq həyat», «Geostrategiya» və s. nəşrlərdən də istifadə edilmişdir. Dissertasiyanın tədqiq edilməsində bu materiallar az əhəmiyyət daşımır[1].

Mövzunun araşdırılmasında Heydər Əliyevin İƏT ölkələrinə rəsmi səfərləri, beynəlxalq qurumlarla görüşlərini əks etdirən çoxcildli nəşrlərdən «Heydər Əliyev və Şərq», «Azərbaycan beynəlxalq aləmdə», «Heydər Əliyev müstəqilliyimiz əbədidir» kimi kitabları xüsusi əhəmiyyətə malikdir[2]. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İƏT və digər müsəlman təşkilatlarının başçıları ilə diplomatik görüşlərini əks etdirən «İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar» adlı IV cildlik, «Prezident İlham Əliyev və mədəniyyət: qəbullar, nitqlər, çıxışlar, görüş və mərasimlər, səfərlər, müsahibələr» adlı II cildlik, «Azərbaycan nefti dünya siyasətində» və s. kitablarda

---

[1] Dünya birliyinin tamhüquqlu üzvü olmalıyıq // «Həyat» qəzeti, № 158, 17 avqust, 1991; Dakar konfransından şad xəbər // «Həyat» qəzeti, № 239, 10 dekabr, 1991; Азербайджан принят в ОИК // «Бакинский рабочий», № 239, 10 декабря, 1991; Müstəqil Azərbaycan dünya miqyasında yüksək nüfuz qazanır // «Azərbaycan» qəzeti, № 245, 20 dekabr, 1994; İlham Əliyevin İKT baş katibi ilə görüşdü // «525-ci qəzet», № 231, 1 dekabr, 2004.

[2] Azərbaycan beynəlxalq aləmdə. 5 cilddə, c. II. Bakı: Göytürk, 1996, 301 s., Heydər Əliyevin 1993-1998-ci illərdə diplomatik səfərləri, I c. 267 s., II c. 761 s.; Heydər Əliyev və Şərq (İKT dövlətləri). Bakı: Çaşıoğlu, VI cilddə, V c. ; Heydər Əliyev Azərbaycanı dünyaya tanıdır. Bakı: Azərbaycan, 1994; Heydər Əliyev və Azərbaycanda din siyasəti: gerçəkliklər və perspektivlər // «Dövlət və Din» jurnalı, № 2, iyul, 2007, s. 7-8; Əliyev H. Müstəqilliyimiz əbədidir. XIV cilddə, I c., 597 s., II c. 588 s., III c. 479 s., IV c. 513 s., V c. 490 s., VI c. 501 s., VII c. 509 s., VIII c. 472 s., Bakı: Azərnəşr, 2005.

[2] İnkişaf məqsədimizdir: çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. I kitab / bur. məsul R.Mehdiyev. Bakı: Azərnəşr, 2008, 424 s.; II kitab, 2009, 432 s.; III kitab, 2009, 416 s.; IV kitab, 2009, 400 s.; Prezident İlham Əliyev və mədəniyyət: qəbullar, nitqlər, çıxışlar, görüş və mərasimlər, səfərlər, müsahibələr. I kitab / bur. məsul S.Məmmədəliyeva. Bakı: İdeal-Print, 2008, 506 s.; II kitab 2008, 568 s.; Əliyev İ. Azərbaycan nefti dünya siyasətində. Bakı: Azərbaycan, 1997, 263 s.

sadalanan məqamlar əks olunmuşdur. Azərbaycan Respublikasının xarici siyasətinə dair müxtəlif illərdə nəşr olunan və 2001-2009-cu illəri əhatə edən 18 cildlik sənədlər məcmuəsinin təqdim etdiyi məlumatlar dissertasiyanın tədqiqində dəyərli mənbələr sırasındadır[1]. Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq təşkilatlarla əlaqələrini şərh edən nəşrdə isə respublikanın İƏT və bu quruma üzv olan ölkələrin Parlament İttifaqı haqqında əhəmiyyətli məlumatlardan istifadə olunmuşdur[2]. Elektron informasiya resurslarının elmi dövriyyəyə buraxılması müasir tədqiqatçıların fəaliyyətinə dəstək vermişdir. Bu səbəbdən Azərbaycan Respublikası Prezidentinin, Xarici İşlər Nazirliyinin, İƏT-in və b. qurumların internet saytlarının mövzu ilə bağlı resurslarından istifadə edilmişdir. Bütün qeyd olunan materiallar ilk dəfədir ki, elmi dövriyyəyə təqdim edilir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiya işinin məqsədi İƏT-in təşəkkül tarixinin və Azərbaycan Respublikası ilə təşkilat arasında çoxtərəfli münasibətlərinin kompleks şəkildə tədqiq edilməsindən ibarətdir. Bunun üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

– İƏT-in təsisat tarixinin tədqiqi və XXI əsrdə ümumislam problemlərinin həllində islam həmrəyliyinin vacibliyinin müəyyənləşdirilməsi;

– İƏT-in beynəlxalq təşkilatlarla müqayisədə yeri və rolunun müəyyən edilməsi, qiymətləndirilməsi;

– Azərbaycanın post sovet məkanında ilk türk-müsəlman respublikası kimi İƏT-ə üzvlüyə müraciət etməsinin təsbit edilməsi;

– Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində İƏT-in konstruktiv, dəyişməz mövqeyinin geniş təhlil edilməsi.

– İİB-nin Azərbaycan Respublikasında infrastrukturun yenilənməsi, elm və təhsilin inkişafına dəstəyinin tədqiq edilməsi;

---

[1] Azərbaycanın xarici siyasəti (sənədlər məcmuəsi). 18 cilddə, 2001-2009-cu illəri əhatə edir. 2001, I c. 1124 s., II c. 384 s.; 2002, I c. 976 s., II c. 616 s.; 2003, I c. 668 s., II c. 672 s.; 2004, I c. 816 s., II c. 1016 s.; 2005, I c. 648 s., II c. 688 s.; 2006, I c. 848 s, II c. 440 s.; 2007, I c. 704 s., II c. 1040 s.; 2008, I c. 656 s., II c. 440 s.; 2009, I c. 976 s., II c. 664 s. Bakı: "Qoliaf nəşriyyat evi" MMC, 2008-2010.

[2] Azərbaycan Parlamenti və beynəlxalq təşkilatlar. Bakı: MM-in nəşr., 2004, 420 s.

– Azərbaycan dövlətinin İƏT ilə mədəni əlaqələrinin inkişafında İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın fəaliyyətinin şərh edilməsi[1];

– Dialoq və Əməkdaşlıq Uğrunda İƏT Gənclər Forumu tərəfindən başlanan «Xocalıya ədalət – Qarabağa azadlıq» beynəlxalq kampaniyasının fəaliyyətinin müəyyən edilməsi;

– Tarixi-dini abidələrin terror hədəfinə çevrilməməsi məqsədilə Azərbaycan dövlətinin İƏT ilə əməkdaşlığının şərh edilməsi;

– Azərbaycan hökumətinin İƏT, BMT və digər beynəqlxalq təşkilatlar çərçivəsində müstəqil Fələstin dövlətinin yaradılmasına dəstəyinin tədqiq edilməsi[2];

**Dissertasiyanın metodoloji əsası.** Tədqiq olunan dissertasiyada tarixi proseslər təhlil olunmuş, İƏT-in yaradılmasına təsir edən amillər şərh edilmişdir. SSRİ-nin parçalanması və Azərbaycan Respublikasının müstəqilliyini yenidən bərqərar etdikdən dərhal sonra İƏT ilə çoxtərəfli əlaqələrinin kompleks şəkildə araşdırılaraq tədqiq edilməsi və reallıqların olduğu kimi, obyektiv yanaşma tərzində əks etdirilməsi problemin metodoloji əsasını təşkil edir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ilk növbədə onunla şərtlənir ki, Vətən tarixşünaslığında Azərbaycan Respublikasının İƏT ilə çoxşaxəli münasibətləri sistemli şəkildə ilk dəfə tədqiqat obyektinə çevrilir:

– İƏT-in 40 ildən yuxarı vaxt ərzində dünya müsəlmanlarının mənafeyinin müdafiə olunmasına göstərdiyi dəstəyi və sülhməramlı missiyası tədqiq edilmişdir;

– İƏT-in təsis olunmasında vacib rol oynayan islam "ümmət"i məhfumunun təşkilatın yaranma tarixindəki əhəmiyyəti şərh edilmişdir;

– İƏT-ə üzv olan 57 dövlətin təşkilatın iqtisadi və siyasi həyatında oynadığı rolu izah edilmişdir;

---

[1] Mehriban Əliyeva İSESKO-nun ilk qadın xoşməramlı səfiri seçilib // «İki Sahil» qəzeti, № 217, 24 noyabr, 2006.

[2] Əhmədov A. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Yaxın Şərq siyasətində İsrail-Fələstin münaqişəsi: Müasir vəziyyət // «Bakı Universitetinin Xəbərləri», № 2, 2012 , s. 199-207.

– Müstəqilliyin bərpasından əvvəl və ilk illərində QMİ-nin sədri Şeyxulislam Allahşükür Paşazadənin Azərbaycan Respublikasını İƏT-də təmsil edən ilk şəxs olduğu təsbit edilmişdir;

– Azərbaycan Respublikasının İƏT ilə əlaqələrinin müxtəlif sahələr üzrə inkişaf etdirilməsinin kompleks təhlilləri edilmişdir;

– Azərbaycan dövlətinin İƏT ilə diplomatik münasibətlərinin inkişafının Heydər Əliyevin xarici siyasət kursunun davamlılığı ilə izah olunduğu şərh edilmişdir;

– Prezident İlham Əliyevin Azərbaycan Respublikasının İƏT ilə əməkdaşlığının çoxtərəfli inkişafını dəstəkləməsində islamın mühüm amil olduğu təsbit edilmişdir;

– Azərbaycan Respublikasının İƏT-ə üzv olan ölkələrin Parlament İttifaqı ilə əməkdaşlığı təhlil edilmişdir;

– Azərbaycan Respublikasının haqq işini daim müdafiə edən İƏT-in münaqişənin həlli istiqamətində qəbul etdiyi qətnamələrin arxiv sənədləri əsasında sistemli şərhi veilmişdir;

– İran, Livan, Suriya, Misir kimi təşkilat üzvlərinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində Azərbaycan Respublikasına dəstəyinin artırılması müəyyən olunmuşdur;

– İslam həmrəyliyinə əks addım atan bəzi İƏT üzvlərinin baş katiblik yanında ciddi qınanmasının əhəmiyyəti şərh edilmişdir;

– İƏT-ə üzv ölkələrlə biznes forumların keçirilməsi və Azərbaycan tərəfindən bəzi İƏT ölkələrinə yatırılan sərmayələrin əməkdaşlığın möhkəmləndirilməsi baxımından səmərəsi tədqiq edilmişdir;

– Azərbaycan Respublikasında islamafobiyanın olmaması və multikulturalizmin mümkün olması İƏT ölkələrinə nümunə kimi göstərilmişdir;

– mövzunun araşdırılmasında müxtəlif mənbələrdəki fakt və arxiv sənədlərinin böyük əksəriyyətinin elmi dövriyyəyə ilk dəfə daxil edildiyi təsbit edilmişdir.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Azərbaycan Respublikasının müasir diplomatiya tarixinin tədqiq olunmasında yararlı ola bilər; Respublikasının xarici siyasətinin təbliğatçısı olan hökümət orqanları və QHT-lərin fəaliyyətində istifadəsi faydalı olardı; Azərbaycan Respublikasında fəaliyyət göstərən İƏT ölkələrinin səfirlikləri ilə birgə həyata keçirilən layihələrdə faydalı məlumat

bazası kimi istifadə oluna bilər; Ali məktəblərin Tarix, Politologiya, Regionşünaslıq, Hüquq, Beynəlxalq münasibətlər, Sosiologiya fakultələrində, həmçinin Mədəniyyət və İncəsənət, Turizm, İslam Universitetlərində tarix dərs vəsaiti kimi yararlı ola bilər; Azərbaycan Respublikasının İƏT üzvü olan ölkələrdə fəaliyyət göstərən diplomatik korpuslarında təşkil olunan seminarlarda mühazirə kursu kimi tədris oluna bilər; təqdim olunan dissertasiyanın elmi nəticələrindən istifadə edilməsi, gələcəkdə Azərbaycan Respublikasının İƏT ilə çoxtərəfli əlaqələrinin tənzimlənməsi işində təcrübədən keçirilə bilər.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın məzmunu və əsas ideyaları müəllifin çap etdirdiyi 20 məqalə (o cümlədən bir məqalə xaricdə), 4 beynəlxalq, 3 respublika əhəmiyyətli konfranslarda öz əksini tapmışdır. Dissertasiya işi AMEA Milli Azərbaycan Tarixi Muzeyinin «Azərbaycan tarixinin elmi ekspozisiyası» şöbəsində 10 iyun 2009-cu ildə (protokol № 5) və Bakı Dövlət Universitetinin Tarix fakultəsinin nəzdində yaradılmış Elmi Seminarda 2 noyabr 2012-ci ildə (protokol № 18) müzakirə edilərək müdafiəyə buraxılması məqsədəuyğun hesab olunmuşdur.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işi giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə və istifadə edilmiş ədəbiyyat bölmələrindən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

**Girişdə** mövzunun aktuallığı və əhəmiyyəti əsaslandırılmış, xronoloji çərçivəsi, problemin elmi araşdırılma səviyyəsi, mənbəşünaslıq bazası, tədqiqatın məqsəd və vəzifələri müəyyənləşdirilmiş, metodoloji əsası, elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti, aprobasiyası şərh edilmiş və quruluşu göstərilmişdir.

Dissertasiyanın I fəsli **«İslam Konfransı Təşkilatının (İKT) təsisatı və əsas fəaliyyət istiqamətləri»** iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **«İslam Konfransı Təşkilatının yaranmasını şərtləndirən amillər»** adlanır. Burada İKT-nin yaradılmasının səbəbləri, müsəlman ölkələrinin Qərb müstəmləkəçiliyinə qarşı azadlıq mübarizəsi, təşkilatın təsisatını sürətləndirən amillər, İƏT-ə daxil olan ölkələrin siyahısı, İƏT-in təşəkkülündə Quranda adı çəkilən «ümmət» məhfumunun fəlsəfi kimi təməl qəbul olunduğu, nəhayət 1969-cu ilin

22-25 sentyabr tarixlərində Mərakeşin paytaxtı Rabatda 25 müsəlman ölkəsinin prezident, kral və hökumət nümayəndələrinin iştirakı ilə İƏT-in təsisat konfransının baş tutması, 1970-ci ilin 23-25 mart tarixlərində Ciddədə İƏT xarici işlər nazirlərinin ilk konfransında mühüm qərarlar qəbul olunaraq daimi baş katibliyin Fələstin işğaldan azad olunana qədər Ciddədə qalacağının razılaşdırılmış, sonda yekun bəyannaməsinin qəbul olunması s. problemlər ardıcıl olaraq konkret materiallar əsasında təhlil olunmuşdur.

I fəslin ikinci yarımfəsli **«İslam Konfransı Təşkilatının fəaliyyətini tənzimləyən struktur bölmələr»** adlanır. İƏT-in struktur fəaliyyətinin təyin olunmasında dörd əsas orqan: a) İƏT-ə üzv ölkələrin dövlət başçılarının təmsilçiliyi ilə keçirilən toplantılar: 1969-cu ildən bu günə qədər 12 islam zirvə görüşü baş tutmuşdur; b) İƏT-ə üzv ölkələrin xarici işlər nazirlərinin sammiti: 1970-ci ildən bu günə qədər 39 toplantı keçirilmişdir; c) Baş katiblik: İƏT-in aparıcı orqanını təşkil edən baş katibliyin mərkəzi qərargahı Səudiyyə Ərəbistanının Ciddə şəhərində yerləşir. Baş katib İƏT xarici işlər nazirlərinin konfransında dörd il müddətinə seçilir, (lazım gəldikdə müddəti uzadıla da bilər), bu toplantının idarə olunması ona həvalə edilir. Hazırda Ə.İhsanoğlu İƏT-in 9-cu baş katibidir. 6-7 fevral 2013-cü ildə isə təşkilata üzv olan ölkələrin dövlət başçılarının XII Qahirə zirvəsində Səudiyyə Ərəbistanının sabiq informasiya və mədəniyyət naziri İyad Mədəni İƏT-in yeni sədri seçilmişdir. O, vəzifəsinin icrasına 2014-cü ilin yanvarından başlayacaq.

Dissertasiyanın II fəsli **«Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı (İKT) ilə əlaqələrinin yaradılması və inkişafı»** üç yarımfəsildən ibarətdir. Birinci yarımfəsil «**Azərbaycan Respublikasının İKT-yə üzv qəbul olunması və ilk siyasi münasibətlərin qurulması (1991-1993)»** adlanır. Hələ müstəqillik öncəsi Sovet Azərbaycanı İƏT ilə münasibət qurmaqda maraqlı idi[1]. Yarımfəsildə SSRİ-nin süqutuna nəzər salınmış, ölkədə baş verən ictimai-siyasi

[1] Quliyeva S. Azərbaycanın İslam Konfransı Təşkilatı ilə əlaqələrinin yaranması (1991-1993-cü illər) // "Dövlət və Din", № 5(13), Sentyabr, 2009, s. 62-69; Участникам Международной Конференции «Мусульмане в борьбе за мир» // «Бакинский рабочий», № 229, 2 октября, 1986; Участникам Международной Конференции «Мусульмане в борьбе за мир» // «Бакинский рабочий», № 229, 2 октября, 1986.

hadisələr təhlil olunmuş və Azərbaycan Respublikasının müstəqilliyini elan etdikdən əvvəl İƏT ilə artıq əlaqələrinin mövcud olduğu göstərilmişdir. 1991-ci ilin may ayında İƏT-in və Ümumdünya İslam Cəmiyyətinin nümayəndə heyətləri Azərbaycana gəlmiş, QMİ-nin sədri Ş.A.Paşazadə ilə əməkdaşlığın inkişaf etdirilməsi və digər məsələləri qarşılıqlı müzakirə etmişlər. Həmin ilin iyun ayında Ş.A.Paşazadə həcc ziyarətində olarkən Səduiyyə Ərəbistanı kralı Fəhd ibn Əbdül Əziz və İƏT-in o zamankı baş katibi H.Əl-Qabid ilə görüşlər keçirmiş, təşkilatın bölməsinə üzv seçilmişdir. Həmin ilin 4-8 avqustunda Ş.A.Paşazadə İƏT xarici işlər nazirlərinin İstambulda keçirilən növbəti XX toplantısına dəvət olunmuş və çıxışı zamanı İƏT iştirakçılarının diqqətini Azərbaycanda baş verən ictimai-siyasi vəziyyətə yönəltmişdir. Nəhayət 1991-ci ilin 8 dekabr tarixində Seneqalın paytaxtı Dakarda keçirilən İƏT zirvəsində Azərbaycan Respublikası təşkilatın nizamnaməsinin VIII maddəsinə müvafiq olaraq islam həmrəyliyinin dəstəyi nəticəsində qurumun 46-cı tamhüquqlu üzvü seçilir [1]. Azərbaycan Respublikasının İƏT ilə əlaqələrinin inkişafı 1993-cü ilin oktyabrından diplomatik münasibətlərə yüksəlmişdir.

II fəslin ikinci yarımfəsli **«Azərbaycan Respublikasınn İKT ilə diplomatik münasibətlərinin inkişafında Heydər Əliyevin rolu (1993-2003)»** adlanır. Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan Respublikasının iqtisadi, siyasi və mədəni həyatında mühüm hadisəyə çevrilmişdir. Bu baxımdan Heydər Əliyevin 1994-cü ildən etibarən islam Şərqinə etdiyi rəsmi səfərləri, bu ölkələrin rəhbərliyi ilə keçirdiyi davamlı görüşlər Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində mühüm nəticələrlə yadda qalmışdır. Heydər Əliyevin İƏT-in sabiq baş katibləri H.Əl-Qabid və İ.Laraki ilə keçirdiyi yüksək səviyyəli görüşlər arxiv sənədləri əsasında geniş araşdırılmışdır. 1994-cü ilin 12 dekabrında Heydər Əliyevin Mərakeşin Kasablanka şəhərində keçirilən VII İƏT zirvəsində və 9-11 dekabr 1997-ci ildə İranın paytaxtı Tehranda keçirilən VIII İƏT zirvəsindəki çıxışları Azərbaycan Respublikası üçün siyasi əhəmiyyət daşımış və ölkənin İƏT

[1] Eyyubova S. Azərbaycan və İslam Konfransı Təşkilatı // «Tarix və onun problemləri», № 2, 2001, s. 116-119

dövlətlərində tanınmasına yol açmışıdır[1]. Heydər Əliyev bu toplantılar çərçivəsində müsəlman dünyasına müraciət edərək İƏT ətrafında birləşən ölkələri Ermənistan-Azərbaycan münaqişəsinin sülh yolu ilə həllinə dəstək verməyə çağırmış və Ermənistanın işğalı nəticəsində qaçqın və məcburi köçkün düşmüş azərbaycanlılara hərtərəfli yardım edilməsinin vacib olduğunu diqqətə çatdırmışdır. Bütün sadalananlar faktik materiallar əsasında təhlil olunmuşdur.

II fəslin üçüncü yarımfəsli **«Ermənista-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və İKT»** adlanır[2]. Ermənistanın Azərbaycan Respublikasına qarşı işğalçılıq siyasəti ilə bağlı ilk sənəd bəyanat şəklində İƏT Baş katibliyi tərəfindən 1992-ci ilin 1 aprelində kütləvi informasiya vasitələrində nəşr olunmuş, həmin ilin 23 sentyabrında BMT Baş məclisinin sessiyasında İƏT xarici işlər nazirlərinin koordinasiya görüşünün yekun sənədinə Ermənistan-Azərbaycan münaqişəsilə bağlı bir maddə salınmışıdr. Dağlıq Qarabağ münaqişəsilə bağlı ilk İƏT qətnaməsi isə 1993-cü ilin 25-29 aprel tarixlərində Pakistanın Karaçi şəhərində İƏT xarici işlər nazirlərinin 21-ci sammitində qəbul olunmuş, həmin ilin oktyabr ayından qətnamələrin adı dəyişilərək «Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında münaqişə haqqında Qətnamə» əvəzinə «Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüzü haqqında Qətnamə» adlandırılmağa başladı[3]. Dağlıq Qarabağ münaqişəsilə bağlı son İƏT qətnamələri təşkilata üzv olan ölkələrin xarici işlər nazirlərinin 2012-ci ilin 15-17 noyabr tarixlərində Cibuti Respublikasının paytaxtı Cibutidə keçirilən 39-cu sessiyasında və 2013-cü ilin 6-7 fevral tarixlərində quruma üzv olan ölkələrin dövlət

---

[1] Quliyeva S. Heydər Əliyev və Azərbaycan Respublikasının islam ölkələri ilə əlaqələrinin qurulması // «Dövlət və din», № 2, may, 2008; Baxşəliyeva G. Heydər Əliyev və İKT / Heydər Əliyev və Azərbaycanda dövlət qadın siyasəti, ümumrespublika konfransının materialları. Bakı: Qafqaz Universiteti nəşri. 2008, s. 72-82.

[2] Quliyeva S. İslam Konfransı Təşkilatının Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin formalaşmasında H.Ə.Əliyevin rolu (1991-2003) // «Diplomatiya aləmi», № 27, 2010, s. 31-39.

[3] Azərbaycan Respublikasının Səudiyyə Ərəbistanı Krallığındakı səfirliyi / Azərbaycan Respublikasının İKT ilə əməkdaşlığı (arayış və sənədlər), ər-Riyad: 2000, s. 3-8.; Məmmədova H. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində İslam Konfransı Təşkilatının (İKT) iştirakı // ADPU-nun Xəbərləri № 5, 2008, s. 52-56.

başçılarının Misirin paytaxtı Qahirədə keçirilən XII toplantısında qəbul olunmuşdur. Lakin bugünə qədər qətnamələrin tələblərinə məhəl qoymayan Ermənistana qarşı İƏT baş katibliyi üzv ölkələr tərəfindən hüquq prinsipləri çərçivəsində ciddi təzyiq olunmasına nail ola bilməmişdir. [1] . Dissertasiyanın III fəsli **«Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı (İKT) ilə sosial-iqtisadi, elmi-mədəni əməkdaşlığı»** iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsil **«Azərbaycan Respublikasının İKT ilə iqtisadi münasibətlərinin inkişafında İslam İnkişaf Bankı (İİB) ilə əməkdaşlığın əhəmiyyəti»** adlanır. Burada İİB-nin yaranma tarixi, onun İƏT-in ən böyük maliyyə İnstitutu olduğu və faizsiz bank kimi fəaliyyətinə qısa nəzər salınmışdır. Hələ müstəqilliyin ilk illərində İİB-nın öz doğma yurd yuvalarından qaçqın düşmüş soydaşlarımıza yaşadıqları ərazilərdə müvəqqəti işlə təmin olunması və dərman vasitələrinin alınmasına 1 milyon 500 min dollar vəsait ayırdığı arxiv sənədləri əsasında açıqlanmışdır. Dövlət başçısı İlham Əliyevin 2004-cü ilin 26 dekabr tarixində İİB-nın prezidenti Ə.M.Əlinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etməsi, 2010-cu ilin 23 iyununda İİB müdirlər şurasının illik 35-ci Bakı tolantısındakı iştirakı və bu tədbirin əhəmiyyəti ilə bağlı geniş məruzəsi, Azərbaycan Respublikasının İƏT ilə sosial-iqtisadi əlaqələrinin inkişafında yeni mərhələnin başlanması kimi məsələlər təhlil olunmuşdur. Həmçinin Azərbaycan iqtisadiyyatında turizmin yeni perspektiv imkanlarının araşdırılması və İƏT turizm nazirlərinin V konfransının Bakıda keçirilməsinin əhəmiyyətini izah etmişdir[2]. Azərbaycan banklarının İİB ilə əməkdaşlığının iqtisadi əlaqələrə töhfə verəcəyini geniş şərh etmişdir.

III fəslin sonuncu yarımfəsli **«Azərbaycan Respublikasının İKT ilə elmi-mədəni əməkdaşlığı və İSESKO»** adlanır. Azərbaycan Respublikası İKT-yə üzv qəbul olunduğu 1991-ci ilin dekabrından İSESKO-nun da üzvü seçilmişdir[3]. Yarımfəsildə müsəlman aləminin ən mötəbər Təhsil, Elm və Mədəniyyət Mərkəzi sayılan İSESKO-nun

---

[1] İKT Ermənistanın Azərbaycana təcavüzünü bir daha pislədi // «Diplomatiya aləmi» jurnalı, № 12, iyul-sentyabr, 2005, s. 10.

[2] Bakıda İslam Konfransı Təşkilatının üzvü olan ölkələrin Turizm Nazirlərinin V Konfransı // «Respublika» qəzeti, № 206, 13 sentyabr, 2006.

[3] Quliyeva S. İSESKO və Azərbaycan əlaqələri barədə // «Dövlət və Din», № 1(9). Fevral, 2009, s. 50-56.

tarixinə qısa nəzər yetirilir, Azərbaycan hökumətinin, Heydər Əliyev Fondunun və bir çox yerli mədəniyyət, təhsil qurumlarının İƏT-in bu mədəniyyət ocağı ilə əməkdaşlığının həyata keçirilməsində mühüm əhəmiyyəti izah olunur. İƏT DƏU GF-nun Azərbaycan hökumətinin təşəbbüsü ilə 2004-cü ilin 1-3 dekabr tarixlərində Bakıda təsis toplantısının keçirilməsi respublika gəncləri ilə İƏT üzvü olan dövlətlərin gəncləri arasında mədəniyyət və həmrəylik körpüsü yaratmışdır. Forumun yaradılması Azərbaycan Respublikasının mədəni həyatında maraqlı hadisə kimi yadda qalmışdır. 2006-cı ildə İSESKO-da Azərbaycan mədəniyyəti günlərinin keçirilməsi, həmin ilin noyabr ayının 23-də Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya qurumun ən ali mükafatı sayılan xoşməramlı səfir dərəcəsinin verilməsi müsəlman aləmində maraqla qarşılanmışdır ki, aspirant bu mühüm mədəni hadisələri geniş şərh etmişdir. 2008-ci ilin 8 mayında İƏT DƏU GF-nun mədəniyyət məsələləri üzrə baş koordinatoru L.Əliyevanın başlatmış olduğu «Xocalıya ədalət – Qarabağa azadlıq» kampaniyası internet portalı vasitəsilə tezliklə bütün Qərb və Avropa ölkələrinə yayılır. 2009-cu il çərçivəsində Bakının islam mədəniyyətinin paytaxtı elan olunması isə Azərbaycan Respublikasının İƏT ilə qurulan elmi-mədəni əlaqələrinə böyük dəyər qatmışdır[1]. Sadalanan mədəni yeniliklər dissertasiyada geniş təhlil olunmuşdur.

Dissertasiyanın **«Nəticə»** hissəsində tədqiqata yekun vurulmuş və alınan nəticələr ümumiləşdirilmişdir. İƏT-in təşəkkül tarixi və Azərbaycan Respublikasının İƏT ilə çoxşaxəli münasibətlərinin inkişaf tarixinin tədqiqi zamanı elmi nəticələrin əsas müddəaları verilmişdir. Bugün Azərbaycan İƏT-in qərarlarına münasibət bildirir və onunla hesablaşır. Respublikada əsası Heydər Əliyev tərəfindən qoyulmuş balanslaşdırılmış daxili və xarici siyasət, enerji siyasəti Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Bu baxımdan ikitərəfli əməkdaşlıq ölkənin beynəlxalq təşkilatların siyasi təcrübəsilə yaxından tanış olmağa yol açmış və Azərbaycan Respublikasının xarici siyasətində bir nömrəli problem olan Ermənistan-

---

[1] Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin «Bakı İslam mədəniyyətinin paytaxtı 2009» mədəniyyət ilinin açılış mərasimində nitqi / «Azərbaycan» qəzeti, 18 fevral, 2009.

Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllində İƏT-in birmənalı dəstəyinə nail olunmuşdur. Lakin bütün bunlarla yanaşı İƏT-in beynəlxalq arenada siyasi təsiretmə mexanizmlərinin məhdud çərçivədə müşahidə olunması, digər tərəfdən təşkilata üzv olan bəzi ölkələrin republikaya qarşı beynəlxalq qurumlarda (məsələn BMT-də) göstərmiş olduqları bitərəf mövqey Azərbaycan-İƏT diplomatik münasibətlərinə təsirsiz ötüşməmişdir. Təhlil olunan məsələlər nəticənin yekunlaşması zərurətini ortaya qoymuşdur.

**Dissertasiyanın əsas məzmunu doktorantın nəşr olunmuş məqalələrində öz əksini tapmışdır:**

**MƏQALƏLƏR:** 1. İslam Konfransı Təşkilatının təşəkkül tarixindən // Milli Azərbaycan Tarixi Muzeyi, 2006, s. 191-200.

2. İSESKO ilə Azərbaycan elmi, mədəni əlaqələrinin qurulmasında yeni missiya: Xoşməramlı səfir Mehriban Əliyeva faktoru // Milli Azərbaycan Tarixi Muzeyi, 2007, s. 245-254.

3. İslam Konfransı Təşkilatı Gənclər Forumunun (İKTGF) mədəniyyətlərarası dialoqun təmin olunmasına yeni töhfəsi: «Gənclər sivilizasiyaların alyansı naminə» // «Xəzər Xəbər» jurnalı, № 239, 15 noyabr, 2007, s. 31-32.

4. İslam Konfransı Təşkilatının (İKT) xətti ilə Sovet Azərbaycanında gerçəkləşən konfrans (1986) // «Elm» qəzeti, № 39-40, 17 dekabr, 2007.

5. İKT-Azərbaycan münasibətlərində yeni mərhələ: İslam Konfransı Gənclər Forumu və gələcək perspektivlər // Azərbaycan Milli Elmlər Akademiyası aspirantlarının elmi konfransının materialları, aprel, 2008, s. 426-429.

6. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında İslam Konfransı Təşkilatının mövqeyi // «Dövlət İdarəçiliyi», № 4(24), 2008, s. 171-176.

7. Azərbaycan – İKT elmi-mədəni münasibətləri və İSESKO (1997-2009) // Milli Azərbaycan Tarixi Muzeyi, 2009, s. 237-248.

8. Azərbaycan Respublikasının İslam Konfransı Təşkilatı (İKT) və müsəlman ölkələri ilə iqtisadi əməkdaşlığına dair // «AMEA-nın Xəbərləri», № 10 , 2009, s. 113-128.

9. Azərbaycan Respublikasının İKT ilə diplomatik münasibətlərinin inkişafında Heydər Əliyevin rolu (1994-1997) // Azərbaycan Milli

Elmlər Akademiyası aspirantlarının elmi konfransının materialları, aprel, 2009, s. 452-456.

10. İslam Konfransı Təşkilatı Gənclər Forumunun növbəti uğurlu addımı // «Elm» qəzeti, № 19-20, 22 iyun 2009.

11. Azərbaycan – İslam Konfransı Təşkilatı və İSESKO // «Dirçəliş XXI əsr», iyun-iyul, 135-136, 2009, s. 224-231.

12. Azerbaijan and Turkey are active members of the Islam conference organization (OIC) // «Kültür Evreni». Uluslararası hakemli sosyal bilimler dergisi. № 4, Ankara: 2009, s. 189-197.

13. İlham Əliyev və İKT – Məkkə zirvə toplantısı. AMEA Gənclərin İntellektual İnkişaf Mərkəzi // «Gənc alimlərin əsərləri». № 4, 2011, s. 224-227.

14. Azərbaycan Respublikası İslam Konfransı Təşkilatında və diplomatik münasibətlərin qurulması // «Dirçəliş XXI əsr», mart-aprel/155-156, 2011, s. 409-420.

15. Azərbaycan Respublikası və İslam Konfransı Təşkilatı: Diplomatik münasibətlərdə 20 il // «Bakı Universitetinin Xəbərləri», № 3, 2011, s. 166-173.

16. İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Yaxın Şərq siyasətində İsrail-Fələstin münaqişəsi: Müasir vəziyyət // «Bakı Universitetinin Xəbərləri», № 2, 2012, s. 199-207.

17. İlham Əliyev və İslam Əməkdaşlıq Təşkilatı // «Dirçəliş XXI əsr», sentyabr-oktyabr/169-170, 2012, s. 202-211.

18. Azərbaycan Respublikasının xarici siyasətində islam amili // «Dirçəliş XXI əsr», yanvar-fevral/173-174, 2013, s. 311-322.

19. Azərbaycan-İƏT çoxtərəfli əməkdaşlığı və Heydər Əliyev // AMEA İnsan Hüquqları İnstitutunun dissertant və doktorantlarının elmi nəşrləri. Bakı: Elm və təhsil 2013.

20. Azərbaycan Respublikasının İƏT çərçivəsində İslam İnkişaf Bankı ilə əməkdaşlığı // «Bakı Universitetinin Xəbərləri», № 3, 2013.

**MƏRUZƏLƏR:** 21. Azərbaycan – İSESKO elmi-mədəni əməkdaşlığında Mehriban Əliyevanın rolu / «Bakı İslam mədəniyyətinin paytaxtıdır – 2009» beynəlxalq konfransın tezisləri. Bakı: Elm və təhsil, 9-10 noyabr, 2009, s. 42-44.

22. İslam Konfransı Təşkilatı Gənclər Forumu Azərbaycan gəncliyi ilə müsəlman ölkələri gəncləri arasında mənəvi körpüdür / «Azərbay-

can elmi və gənclik: reallıqlar, perspektivlər və təkliflər» mövzusunda respublika elmi konfransının materialları. Bakı: AzTU, 7-11 dekabr, 2009, s. 78-83.

23. Azərbaycan Respublikasında müasir islam sivilizasiyası, təhsil-elm, mədəniyyət siyasəti və Mehriban Əliyeva / «Qloballaşma şəraitində humanitar elmlərin aktual problemləri» mövzusunda keçirilmiş respublika elmi-praktik konfransının materialları. Bakı: Araz, 15 mart, 2011, s. 169-170.

24. Diplomatik missiyanın müasir muzeylərdə təbliğatı / «Muzeylərin müasir durumu və inkişaf perspektivləri» mövzusunda beynəlxalq elmi konfransın materialları. Bakı: Ziya, 29-30 iyun, 2011, s. 32-33.

25. İSESKO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın diplomatik-mədəni fəaliyyətinin əsas aspektlərinə dair / «Müsəlman Şərqində ilk dünyəvi qız məktəbinin yaradılmasının 110 illiyi»nə həsr olunmuş beynəlxalq elmi simpoziumun tezisləri. Bakı: Ziya, 6-7 oktyabr, 2011, s. 9.

26. İslam Əməkdaşlıq Təşkilatının nüvə təhlükəsizliyi və atom enerjisindən dinc məqsədlərlə istifadə edilməsi məsələsində mövqeyi / «Nüvə enerjisinin dinc məqsədlərlə istifadəsi perspektivləri IV beynəlxalq konfrans»ının tezisləri. Bakı, 23-25 noyabr, 2011, s. 132.

27. İslam Əməkdaşlığı Təşkilatı və «Xocalıya ədalət – Qarabağa azadlıq» beynəlxalq kampaniyası / İnsan Hüquqları İnstitutunun 15 illiyinə həsr olunmuş «Soyqırımı və terror erməni ideologiyasının əsas amilləri kimi» beynəlxalq konfransın tezislər toplusu. Bakı: Apostrof, 4 aprel, 2013, s. 49-52.

**A. P. Ahmadov**

# ORGANIZATION OF ISLAMIC CONFERENCE AND REPUBLIC OF AZERBAIJAN (1991-2006)

## SUMMARY

The thesis consists of an introduction, three chapters, seven paragraphs, conclusion and a list of references.

**In the introduction** is substantiated the subject urgency, stated view on the research level, specified a chronological framework and task, scientific novelty of the thesis has been presented.

**In the first chapter** is noted the factor which caused foundation of the organization and stated events to its formation. There is stated the main conferences of the ministers of foreign affairs, heads of the states and governments, as well as the auxiliary sectors and subdivisions of OIC.

**The second chapter** deals with the process of establishment of good diplomatic relations of the Azerbaijan Republic with OIC. In the reviewed chapter is analyzed contribution of Haydar Aliyev to development of diplomatic relations and appreciation given by the President Ilham Aliyev to a present state of Islamic solidarity. The univocal position of OIC concerning issue on settlement of Nagorny Karabakh as well as Armenian-Azerbaijani conflict are reflected in the chapter.

**In the third chapter** is emphasized cooperation with Islamic Bank of Development to establish and develop social economic relations of Azerbaijan Republic with OIC including scientific and cultural cooperation with the Organization of Islamic Conference is considered.

**In the conclusion** the research is summarized and colligated.

**А. П. Ахмедов**

# ОРГАНИЗАЦИЯ ИСЛАМСКАЯ КОНФЕРЕНЦИЯ И АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА (1991-2006)

## Р Е З Ю М Е

Диссертация состоит из введения, трех глав, семи параграфов, заключения и списка литературы.

**Во введении** обоснована актуальность темы, высказано мнение об уровне исследования, определены хронологические рамки и задача диссертации, представлена научная новизна работы

**В первой главе** отмечены причины, создания организации, изложены события послужившие толчком к ее образованию. Указаны основные конференции министров иностранных дел, глав государств и правительств, а также вспомогательных структур и подразделений ОИК.

**Во второй главе** исследован процесс налаживания дипломатических отношений Азербайджанской Республики с ОИК. В данной главе анализируется вклад Гейдара Алиева в развитие дипломатических связей и высокая оценка, данная Президентом Ильхамом Алиевым нынешнему состоянию исламской солидарности. В главе также отражена однозначная позиция ОИК по вопросу урегулирования Нагорно-Карабахского, армяно-азербайджанского конфликта.

**В третьей главе** подчеркнуто значение сотрудничества с Исламским Банком Развития для развития социально-экономических отношений Азербайджанской Республики с ОИК, а также рассмотрено научно-культурное сотрудничество с Организацией Исламская Конференция.

**В заключении** подводятся итоги и обобщаются выводы исследования.

**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ИСТОРИИ им. А.А.БАКИХАНОВА**

***На правах рукописи***

**АГИЛЬ ПИРМУРАД оглы АХМЕДОВ**

# ОРГАНИЗАЦИЯ ИСЛАМСКАЯ КОНФЕРЕНЦИЯ И АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА (1991-2006)

**Специальность: 5503.02 – Отечественная история**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по истории**

**БАКУ – 2013**